

Gənc şair Sevindik Nəsiboğlu "İşğaldan azad olunan bölgələrdəki kitabxanaların fondu üçün kitab toplama kampaniyası"na qoşularaq müəllifi olduğu kitablardan 40 nüsxə Milli Kitabxanaya təqdim etdi.

"Milli Kitabxananın dəyərli oxucusu, gənc yazar Sevindik Nəsiboglu! Azərbaycan Respublikasının Prezidenti, Ali Bas Komandan cənab Ilham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan ordusu tərəfindən 44 günlük müharibə nəticəsində erməni isgalından azad olunmus ərazilərimizdə 90-cı illərin əvvəllərinədək fəaliyyət göstərmis kitabxanaların kitab fondlarının bərpası ilə əlaqədar Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi ilə Milli Kitabxananın birgə keçirdiyi kitab toplama

# Gənc şair Sevindik Nəsiboğlu müəllifi olduğu kitablardan 40 nüsxə Milli Kitabxanaya təqdim etdi



kampaniyasına qosuldugunuz üçün Sizə təşəkkür edirik. Fəaliyyətinizdə yaradıcılıq ugurları arzulayırıq!"

Bu sözləri Milli Kitabxananın adından Milli Kitabxananın direktor müavini Ədibə xanım İsmayılova facebook səhifəsində yazıb. Onun paylaşımına təşəkkür edən gənc yazar kiçik hədiyyəsinə böyük qiymət verdiyinə görə Milli Kitabxananın rəhbərliyinə dərin təşəkkürünü bildiribib: "Vətənimlə və Vətənimin biz gənclərə dəyər verən ziyalıları ilə fəxr edirəm! Mən çox xoşbəxtəm ki, "işğaldan azad olunan bölgələrdəki kitabxanaların fondu üçün kitab toplama kampaniyası"na mən də qoşulmuşam!

Bu kampaniyanı baslatdıgına görə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinə və Milli Kitabxananın rəhbərliyinə dərin minnətdarlıgımı bildirirəm! Dagıdılmıs yurdlarımızı da Cənab Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında əl-ələ verərək, tez bir zamanda bərpa edəcəyik! Mənim ikinci evim saydıgım Milli Kitabxananın rəhbəri hörmətli Kərim müəllim Tahirova, direktor müavini hörmətli Ədibə xanım Ismayılovaya və kitabxananın bütün kollektivinə dərin təsəkkürümü bildirirəm! Hamını bu kampaniyaya qoşulmağa dəvət edirəm!" - deyə Sevindik Nəsiboğlu qeyd edib.

*Vüsalə* Qələndərli
*Afia.az saytının baş redaktoru*